*ELMİ TƏDQİQAT Beynəlxalq Elmi Jurnal.* İyul 2026, Cild: 6, Sayı: 7, s. 86–89
*SCIENTIFIC RESEARCH International Scientific Journal.* July 2026, Volume: 6, Issue: 7, pp. 86–89
DOI: https://doi.org/10.36719/2789-6919/61/86-89

# Nadir dillərdə fonoloji proseslər: çağırışlar və qoruma strategiyaları

**Günel Mustafayeva**

***Xülasə.*** *Nadir dillərin fonoloji sistemi onların səs strukturlarını və bu strukturların dil daxilində necə fəaliyyət göstərdiyini əks etdirir. Bu dillərin fonologiyası, həm daxili (struktur, fonemik sistem) baxımdan, həm də xarici (sosial və mədəni dəyişikliklər, dilin yayılma səviyyəsi) amillərlə sıx bağlıdır. Nadir dillər fonetik baxımdan yüksək müxtəlifliyə malik olsalar da, onların fonoloji xüsusiyyətləri çox zaman təhlükə altındadır. Bu dillərin təbii inkişafını məhdudlaşdıran faktorlar arasında dilin istifadə dairəsinin daralması, dominant dillərlə təmas və yazılı sistemin olmaması xüsusi yer tutur. Fonemlərin sayı və tərkibi nadir dillərdə digər dillərlə müqayisədə həm daha az, həm də bəzən daha kompleks ola bilər. Eyni zamanda, bu dillərdə qeyri-adi fonetik hadisələr — məsələn, ton, vurğu, vokal dəyişmələri və ya səslərin qeyri-standart istifadəsi — geniş şəkildə müşahidə olunur. Bu xüsusiyyətlər nadir dilləri fərqləndirən əsas elementlərdir, lakin dilin canlı istifadəsi azaldıqca bu cəhətlər də itmə riski ilə üzləşir. Mədəniyyətlərarası qarşılıqlı təsir və dominant dillərin nüfuzu nəticəsində nadir dillərin səs quruluşu zamanla dəyişə və orijinal fonoloji elementlər zəifləyə bilər. Bəzi hallarda, yerli danışanlar digər dillərin fonoloji xüsusiyyətlərini mənimsəməklə öz ana dillərindəki fərqli fonemləri və ya səs nüanslarını tədricən unudurlar. Üstəlik, çoxsaylı nadir dillərdə yazı sistemi mövcud deyil və bu, fonoloji xüsusiyyətlərin nəsillərarası ötürülməsini çətinləşdirir.*

***Açar sözlər:*** *fonologiya, nadir dillər, fonetik dəyişikliklər, dil qorunması, dil müxtəlifliyi*

---

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
E-poçt: gunelfurkan@mail.com
Daxil oldu: 18 Mart 2026; Qəbul edildi: 20 May 2026; Onlayn dərc edildi: 30 İyul 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

# Phonological Processes in Rare Languages: Challenges and Preservation Strategies

**Gunel Mustafayeva**

***Abstract.*** *The phonological system of endangered languages reflects their sound structures and how these structures function within the language. The phonology of these languages is closely tied to both internal factors (such as structure and phonemic system) and external factors (such as social and cultural changes, and the extent of language dissemination). Although rare languages often exhibit high phonetic diversity, their phonological features are frequently endangered. Factors limiting the natural development of these languages include a narrowing domain of use, contact with dominant languages, and the absence of a written form. The number and composition of phonemes in rare languages can be either smaller or more complex compared to other languages. At the same time, unusual phonetic phenomena—such as tone, stress, vowel shifts, or non-standard sound usage—are widely observed.*

*These characteristics are key elements distinguishing rare languages, yet as live usage declines, these features face the risk of extinction. Due to intercultural influence and the dominance of more widespread languages, the sound structures of rare languages may gradually change, weakening their original phonological elements. In some cases, native speakers adopt the phonological features of other languages, leading to the gradual loss of distinct phonemes or subtle sound differences in their mother tongues. Furthermore, many rare languages lack a writing system, making the intergenerational transmission of phonological characteristics more difficult.*

***Keywords:*** *phonology, rare languages, phonetic changes, language preservation, linguistic diversity*

---

Baku State University, Baku, Azerbaijan
E-mail: gunelfurkan@mail.com
Received: 18 March 2026; Accepted: 20 May 2026; Published online: 30 July 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Fonologiya dilin səs sistemini və səslərin funksional xüsusiyyətlərini öyrənən dilçilik sahəsidir. Nadir dillərin fonoloji sistemləri həmin dillərin strukturunu, tarixi inkişafını və dil müxtəlifliyini əks etdirən əsas komponentlərindən hesab olunur. Bu dillər fonetik və fonoloji baxımdan zəngin xüsusiyyətlərə malik olsalar da, onların əksəriyyəti məhv olmaq təhlükəsi altındadır. Dil daşıyıcılarının sayının azalması, dominant dillərin təsiri, urbanizasiya, miqrasiya və yazı sisteminin olmaması nadir dillərin fonoloji sisteminə mənfi təsir göstərən əsas amillərdir (Harrison, 2007).

Fonoloji xüsusiyyətlərin itirilməsi yalnız dilin səs sisteminin deyil, bütövlükdə mədəni irsin və dil müxtəlifliyinin zəifləməsinə səbəb olur. Buna görə də nadir dillərin fonoloji proseslərinin öyrənilməsi, sənədləşdirilməsi və qorunması müasir dilçiliyin prioritet istiqamətlərindən hesab edilir (Crystal, 2000; Wurm, 2001). Bu tədqiqatın məqsədi nadir dillərdə müşahidə olunan əsas fonoloji prosesləri müəyyənləşdirmək, onların qarşılaşdığı çağırışları təhlil etmək və fonoloji müxtəlifliyin qorunmasına xidmət edən strategiyaları qiymətləndirmək (Austin & Sallabank, 2011; Grenoble & Whaley, 2006).

## Metodlar

Tədqiqat keyfiyyət metodologiyası (qualitative methodology) əsasında aparılmışdır. Araşdırmada müqayisəli-təsviri və sistemli təhlil metodlarından istifadə edilmişdir (Creswell & Creswell, 2018). Məlumat bazasını fonologiya, dilin məhv olması və dilin canlandırılması sahəsində nəşr olunmuş monoqrafiyalar, beynəlxalq elmi məqalələr və UNESCO-nun nəşrləri təşkil etmişdir (Wurm, 2001; Harrison, 2007; Austin & Sallabank, 2011). Ədəbiyyat mənbələrinin seçilməsi zamanı onların elmi etibarlılığı, mövzuya uyğunluğu və müasirliyi əsas meyar kimi götürülmüşdür. Toplanmış materiallar aşağıdakı istiqamətlər üzrə təhlil edilmişdir:

- nadir dillərin fonem inventarının xüsusiyyətləri;
- fonoloji proseslər və fonetik dəyişikliklər;
- dil kontaktlarının fonoloji sistemə təsiri;
- yazı sisteminin olmamasının fonoloji müxtəlifliyə təsiri;
- fonoloji irsin qorunması üçün istifadə olunan strategiyalar (Maddieson, 2013; Mufwene, 2001; Bhaskararao, 2004).

Əldə olunan məlumatlar müqayisəli şəkildə ümumiləşdirilmiş və mövcud nəzəri yanaşmalar əsasında şərh edilmişdir (Grenoble & Whaley, 2006; Hinton et al., 2018).

**Nəticələr**

Tədqiqat göstərmişdir ki, nadir dillərin fonoloji sistemləri geniş yayılmış dillərlə müqayisədə daha yüksək struktur müxtəlifliyinə malikdir (Maddieson, 1984). Araşdırma nəticəsində müəyyən edilmişdir ki:

- Bəzi nadir dillərdə fonemlərin sayı az olsa da, onların funksional yükü yüksəkdir (Maddieson, 1984);
- Ton, vurğu, sait harmoniyası və digər qeyri-adi fonoloji hadisələr bu dillərdə daha geniş yayılmışdır (Maddieson, 1984);
- Dominant dillərlə uzunmüddətli dil təması nəticəsində orijinal fonemlər tədricən itir və fonoloji sadələşmə baş verir (Mufwene, 2001);
- Yazılı ənənənin olmaması fonoloji xüsusiyyətlərin nəsillər arasında ötürülməsini çətinləşdirir (Crystal, 2000; Austin & Sallabank, 2011);
- Dil daşıyıcılarının sayının azalması fonoloji variasiyanın sürətlə yox olmasına səbəb olur (Harrison, 2007; Lee et al., 2022).

Araşdırma həmçinin göstərmişdir ki, rəqəmsal texnologiyalar vasitəsilə səs yazılarının yaradılması, fonetik korpusların hazırlanması və fonoloji təsvirlərin sənədləşdirilməsi fonoloji sistemlərin qorunmasında mühüm rol oynayır (Bhaskararao, 2004; Grenoble & Whaley, 2006; Hinton et al., 2018).

**Müzakirə**

Əldə edilən nəticələr Crystal (2000), Harrison (2007), Wurm (2001), Romaine (2007) və digər tədqiqatçıların nəticələri ilə uyğunluq təşkil edir. Müəlliflər qeyd edirlər ki, dilin məhv olması ilk növbədə onun fonoloji sistemində müşahidə edilir. Maddieson (2013) müxtəlif dillərdə fonoloji sistemlərin struktur baxımından böyük fərqlər göstərdiyini vurğulayır. Bu fikir aparılan təhlilin nəticələri ilə üst-üstə düşmüşdür. Mufwene (2001) isə dil kontaktlarının fonoloji dəyişikliklərə səbəb olduğunu qeyd edir ki, araşdırmada da dominant dillərin təsirinin fonoloji sadələşməyə gətirib çıxardığı aşkar edilmişdir. Tədqiqat göstərir ki, yalnız yazılı sistem yaratmaq kifayət etmir. Fonoloji irsin qorunması üçün audio və video sənədləşdirmə, rəqəmsal arxivlərin yaradılması, məktəblərdə ana dili tədrisinin genişləndirilməsi və yerli icmaların bu prosesə cəlb edilməsi mühüm əhəmiyyət daşıyır (Grenoble & Whaley, 2006; Hinton et al., 2018; Campbell & Belew, 2018). Beləliklə, fonoloji müxtəlifliyin qorunması dil siyasətinin, təhsil sisteminin və müasir texnologiyaların inteqrasiyası nəticəsində daha səmərəli həyata keçirilə bilər (Lee et al., 2022; Romaine, 2007).

**Nəticə**

Araşdırma göstərir ki, nadir dillərin fonoloji sistemi dil müxtəlifliyinin qorunmasında əsas komponentlərdən biridir. Fonoloji xüsusiyyətlər yalnız dilin struktur elementlərini deyil, həm də həmin dili daşıyan xalqın mədəni və tarixi irsini əks etdirir (Crystal, 2000; Harrison, 2007). Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, nadir dillərin fonoloji sisteminə əsas təhlükələr dil kontaktları, danışanların sayının azalması, yazılı ənənənin zəifliyi və qloballaşma prosesləridir (Mufwene, 2001; Wurm, 2001; Lee et al., 2022).

Fonoloji müxtəlifliyin qorunması üçün yazı sistemlərinin hazırlanması, fonetik korpusların yaradılması, rəqəmsal texnologiyaların tətbiqi, elmi sənədləşdirmə və ana dilinin tədrisinin genişləndirilməsi mühüm əhəmiyyət daşıyır (Bhaskararao, 2004; Grenoble & Whaley, 2006; Hinton et al., 2018). Gələcək tədqiqatlarda konkret nadir dillərin fonoloji sistemlərinin eksperimental-fonetik metodlarla öyrənilməsi və müqayisəli analizinin aparılması bu sahəyə mühüm elmi töhfələr verə bilər (Austin & Sallabank, 2011; Campbell & Belew, 2018).

## Ədəbiyyat

Austin, P. K., & Sallabank, J. (Eds.). (2011). *The Cambridge handbook of endangered languages*. Cambridge University Press.

Bhaskararao, P. (2004). Phonetic documentation of endangered languages: Creating a knowledge base containing sound recording, transcription and analysis. *Acoustical Science and Technology, 25*(4), 219–226. https://doi.org/10.1250/ast.25.219

Campbell, L., & Belew, A. K. (Eds.). (2018). *Cataloguing the world's endangered languages*. Routledge.

Crystal, D. (2000). *Language death*. Cambridge University Press.

Grenoble, L. A., & Whaley, L. J. (2006). *Saving languages: An introduction to language revitalization*. Cambridge University Press.

Harrison, K. D. (2007). *When languages die: The extinction of the world's languages and the erosion of human knowledge*. Oxford University Press.

Hinton, L., Huss, L., & Roche, G. (Eds.). (2018). *The Routledge handbook of language revitalization*. Routledge.

Lee, N. H., Siew, C. S. Q., & Ng, N. H. N. (2022). The network nature of language endangerment hotspots. *Scientific Reports, 12*, Article 10803. https://doi.org/10.1038/s41598-022-14479-1

Maddieson, I. (1984). *Patterns of sounds*. Cambridge University Press.

Mufwene, S. S. (2001). *The ecology of language evolution*. Cambridge University Press.

Romaine, S. (2007). Preserving endangered languages. *Language and Linguistics Compass, 1*(1–2), 115–132. https://doi.org/10.1111/j.1749-818X.2007.00004.x

Wurm, S. A. (Ed.). (2001). *Atlas of the world's languages in danger of disappearing* (2nd ed.). UNESCO Publishing.